SENTYABR- DEKABR 2022

# RÜBLÜK İCMAL

YENİ TƏYİNATLAR

TƏDBİRLƏR VƏ NAİLİYYƏTLƏR

DÖVLƏT PROQRAMI MƏZUNLARININ UĞURLARI



# Yeni təyinat



## Aqil Qurbanov

"2007-2015 Dövlət Proqramı" çərçivəsində 2012-2014-cü illərdə magistratura təhsil səviyyəsi üzrə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının "London School of Economics and Political Science" ali təhsil müəssisəsindən məzun olmuş Aqil Qurbanov Azərbaycan Respublikasının müdafiə nazirinin müavini vəzifəsinə təyin edilmişdir.

Yeni fəaliyyətində A.Qurbanova uğurlar arzu edirik.

# Yeni təyinat



## Vüqar Əliyev

“2007-2015 Dövlət Proqramı” çərçivəsində 2010-2012-ci illərdə Rusiya Federasiyasının "Московский Государственный Лингвистический Университет” ali təhsil müəssisəsində “Jurnalistika” ixtisası üzrə ixtisasartırma təhsili almış Əliyev Vüqar Əliheydər oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə heyətinin sədri təyin olunmuşdur.
V. Əliyevi bu münasibətlə təbrik edir və gələcək işlərində ona uğurlar arzu edirik.

# Məzunların uğurları



## Hüseyn Abdulla

“2007-2015 Dövlət Proqramı” çərçivəsində 2015-2016-cı illərdə Amerika Birləşmiş Ştatlarının "University of California, Berkeley” ali təhsil müəssisəsində “Sənaye mühəndisliyi və əməliyyatlar tədqiqi” ixtisası üzrə magistratura təhsili almış və daha sonra "Texas A&M University" ali təhsil müəssisəsində doktorantura təhsilini tamamlamış H.Abdulla həmin universtietin məzunları assosiasiyasının "Tədqiqatda fərqlənməyə görə" (2022 Association of Former Students Distinguished Graduate Student Award) mükafatına layiq görülüb.

H. Abdullanı bu münasibətlə təbrik edir və gələcək işlərində ona uğurlar arzu edirik.

# Məzunların uğurları



## Elçin Tarquluyev

“2007-2015 Dövlət Proqramı” çərçivəsində 2014-2018-ci illərdə Kanadanın "University of Toronto” ali təhsil müəssisəsində Mexanika mühəndisliyi ” ixtisası üzrə bakalavriat təhsili almış E. Tarquluyev "Fəxri Energetik" adı il təltif olunub.

E. Tarquluyevi bu münasibətlə təbrik edir və gələcək işlərində ona uğurlar arzu edirik.

# *Biləsuvarda "Parlaq Gələcəyim" və "Məktəbliyə 1 kitab" layihəsi keçirilib*

Elm və Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin təşkilatçılığı, eyni zamanda “2007-2015-ci illər üçün Dövlət Proqramı” (DP) və “Hökumətlərarası Təqaüd Proqramları” (HTP) məzunlarının dəstəyi ilə “Parlaq gələcəyim” və “Məktəbliyə bir kitab” layihələri həyata keçirilib.

Layihələr çərçivəsində Biləsuvar rayonundakı Cəbrayıl qəsəbələrində yerləşən 11 məcburi köçkün məktəbində oxuyan 130-a yaxın VII-X sinif şagirdləri ilə görüş keçirilib.






# Şəhid övladları üçün "Zəfər düşərgəsi" baş tutub












Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə şəhid övladları üçün Zuğulba tədris idman bazasında “Zəfər düşərgəsi” təşkil edilib.

Layihənin məqsədi uğurlu şəxslərlə, eyni zamanda “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın məzunları ilə şəhid ailələrinin üzvləri olan 8-11-ci sinif şagirdlərini bir araya gətirməklə onların düşüncəsində pozitiv dəyişikliklər yaratmaq, motivasiyasını artırmaq, düzgün ixtisas seçimi, gələcək peşə istiqamətləri və xaricdə təhsillə əlaqədar təqaüd proqramları barədə məlumatlandırmaq olub.

# “Təhsil töhfəsi: kiçik addımlar, böyük uğurlar” layihəsi çərçivəsində məktəblilərlə görüş keçirilib






Elm və Təhsil Nazirliyi və Azərbaycan-Britaniya Məzunları Birliyinin (AUKAA) birgə əməkdaşlığı nəticəsində icra edilən “Təhsil töhfəsi: kiçik addımlar, böyük uğurlar” layihəsi çərçivəsində 150 məktəbli ilə görüş keçirilib.

Görüşdə spiker qismində iştirak edən “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın məzunu, hazırda Mərkəzi Bankda baş mütəxəssis olaraq fəaliyyət göstərən və AUKAA idarə heyətinin üzvü Vəfa Hacızadə öz uğur hekayəsi, ixtisas seçimi barədə şagirdləri məlumatlandırıb.




# “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”

**SENTYABR-DEKABR 2022**

## RÜBLÜK İCMAL

*Hörmətli Dövlət Proqramı təqaüdçüləri, Rüblük icmalın növbəti buraxılışlarında öz uğurlarınızı, nailiyyətlərinizi görmək istəyirsinizsə, müvafiq məlumatları bizimlə paylaşmağınızı tövsiyə edirik.*

**Ziyadxan Xankişizadə**
**(ziyadxan.xankisizada@edu.gov.az)**

**Şəms Səfərəliyeva**
**(shams.safaraliyeva@edu.gov.az)**